


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

27 yanvar 2023-cü il
cümə

1933-cü ildən çıxır
№ 4 (3618)

# ÖLKƏMİZİN PRİORİTETLƏRİ VƏ PLANLARI BƏLLİDİR

İqtisadi Əməkdaşlıq Təşkilatına 2023-cü ildə sədrlik rəsmən Azərbaycana keçib. Təşkilatın strategiya və proqramlarının uğurla icra olunması, habelə "İƏT-2025" baxışlarının irəlilədilməsi, iqtisadiyyat, enerji, nəqliyyat, gömrük, sərhəd-keçid məntəqələri, ədliyyə, turizm və səhiyyə sahələrində bir sıra yüksək səviyyəli görüşlərin keçirilməsi Azərbaycanın sədrlik dönəmində diqqət yetirəcəyi məsələlər olacaq.

İqtisadi əməkdaşlığa xidmət edən regional birlik 1985-ci ildə Türkiyə, İran və Pakistan arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı möhkəmləndirmək məqsədilə yaradılıb. Təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi, onların davamlı iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, nəqliyyat və kommunikasiya sisteminin inkişaf etdirilməsi, iqtisadiyyatın və ticarətin liberallaşdırılması və regiondaxili ticarətin təşviqi, İƏT regionunun maddi sərvətlərinin səmərəli istifadəsindən ibarətdir.



Azərbaycan İƏT Nazirlər Şurasının 28 noyabr 1992-ci ildə İslamabadda keçirilmiş növbədənkənar iclası zamanı təşkilatın üzvlüyünə qəbul edilib. Həmin gün Azərbaycanla yanaşı, daha 5 ölkə - Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistan da təşkilata daxil olublar.

Regional və beynəlxalq iqtisadi təşəbbüsləri hər zaman dəstəkləyən və bu işə böyük töhfələr verən Azərbaycan İƏT çərçivəsində də əməkdaşlığa önəm verir və təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə maraq göstərir.

Ölkəmiz indiyədək çox mühüm iqtisadi, o cümlədən enerji və nəqliyyat layihələri həyata keçirib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin, "Cənub qaz dəhlizi"nin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşası İƏT üzvü olan dövlətlər üçün əlverişli iqtisadi imkanlar yaradıb. Bütün bunlarla ölkəmiz İƏT-in regionda daha səmərəli fəaliyyətini təmin edib.

Azərbaycanın Vətən müharibəsindəki qələbəsi və regionda yaranan yeni reallıqlar isə İƏT üzvü olan dövlətlər arasında iqtisadi və ticari əməkdaşlıq imkanlarını genişləndirir.

Bu günlərdə Daşkənddə keçirilən Nazirlər Şurasının iclasının yekun sənədində Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonundan Naxçıvan Muxtar Respublikasına nəqliyyat və kommunikasiya əlaqəsinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər, habelə ölkəmizin Türkiyə, Özbəkistan və Qazaxıstan ilə birgə həyata keçirdiyi üçtərəfli platformalar üzrə görülən işlər alqışlanıb. Zəngəzur dəhlizi, sadəcə olaraq, Azərbaycanın bir regionunu digəri ilə əlaqələndirməyəcək, eyni zamanda Mərkəzi Asiya ilə Türkiyə və Avropanı birləşdirəcək ki, bu da İƏT çərçivəsində əməkdaşlıq imkanlarını daha da yüksəldəcək.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB

Yanvarın 23-də Daxili İşlər Nazirliyində cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə respublika daxili işlər orqanlarının 2022-ci ildəki fəaliyyətinin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən hüquq mühafizə siyasətinin məntiqi nəticəsi olaraq ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik 2022-ci ildə də etibarlı qorunub. Daxili işlər orqanları və Daxili Qoşunlar tərəfindən əvvəlki illərdə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələr layiqincə yerinə yetirilib, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizlik etibarlı təmin edilib.





Hesabat məruzəsi ilə çıxış edən nazir V.Eyvazov vurğulayıb ki, 2022-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan dövlət qurumları üzrə 36.494 cinayət qeydə alınıb və onlardan 95.2 faizi daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olub. Cinayətlərin 83.4 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə cinayətlərin 89.7 faizinin açılması təmin edilib. Ayrı-ayrı hüquqazidd əməllərin açılmasının nəticələri də yüksək olmaqla ağır və xüsusilə ağır cinayətlərin 85.3, qeyri-aşkar şəraitdə baş verənlərin 85.7, şəxsiyyət əleyhinə olanların 98.2, mülkiyyət əleyhinə olanların 81.8 faizi açılıb.

Prokurorluq orqanları ilə birgə cinayətlərin qarşısının alınması, açılması, istintaqı, bütövlükdə vətəndaşların qanuni mənafelərinin qorunması sahəsində davamlı iş aparılıb, o cümlədən keçmiş illərdən bağlı qalmış 368 cinayət üzrə təqsirli şəxslər müəyyən edilərək məsuliyyətə cəlb olunub.

O da qeyd olunub ki, müqayisə edilən dövrə nisbətən 2022-ci ildə şəxsiyyət əleyhinə olan cinayətlər 2.4, o cümlədən qəsdən adam öldürməyə cəhdlər 13, qəsdən sağlamlığa ağır zərər vurmalar 5, odlu silahın tətbiqi ilə baş verən cinayətlər 17.6, ailə münaqişəsi zəminində törədilənlər 2.4, mal-qara oğurluğu 21.3 faiz azalıb.

*Ardı 2-ci səhifədə.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB








*Əvvəli 1-ci səhifədə.*

Həyata keçirilmiş əməliyyat tədbirləri ilə 251 kriminal qrup zərərsizləşdirilib, odlu silah saxlayan və daşıyan 202 şəxs cinayət məsuliyyətinə cəlb olunub, axtarışda olan 557 təqsirləndirilən şəxsin tutulması təmin edilib.

Qeyri-leqal dövriyyədən 2021-ci illə müqayisədə 373 kiloqram çox – 3 ton 418 kiloqram narkotik vasitənin çıxarıldığını, 172 tondan artıq narkotik xassəli bitkilərin aşkarlanıb məhv edildiyini bildirən nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Eyni zamanda, cinayətkarlıqla mübarizədə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasında vətəndaşların iştirakını, onların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatların keçirildiyini vurğulayaraq fəal mövqe sərgiləyən bütün şəxslərə təşəkkürünü ifadə edib.

Yeniyetmələr və gənclər arasında antinarkotik təbliğatın daha məqsədyönlü davam etdirilməsinin zəruriliyinə də toxunan nazir əsas diqqətin ölkədə narkotiklərə olan tələbatın azaldılmasına yönəldilməsinin əhəmiyyətini nəzərə çatdırıb. Bu vacib sahədə işin vətəndaş cəmiyyəti və media nümayəndələri, sosial şəbəkə istifadəçiləri ilə əlaqəli aparılmasına göstəriş verib.

Paytaxtda nəqliyyat sıxlığının mövcudluğuna və tıxacların yaranmasına da diqqət çəkən nazir aidiyyəti qurumlarla birgə bu cür halların, o cümlədən nəqliyyat vasitələrinin və piyadaların sərbəst, rahat, təhlükəsiz hərəkətinə maneə yaradan qanunsuz parklanmaların, dayanma və ya durmaların qarşısının alınması, həmin pozuntuları törədən nəqliyyat vasitələrinin yol hərəkətindən kənarlaşdırılmasını tələb edib.

Vətəndaş məmnunluğunun təmin olunması, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin icrasına da toxunan general-polkovnik Vilayət Eyvazov bu istiqamətlərdə böyük bir fəaliyyət ortaya qoyulduğunu, nəticələrin müsbət olduğunu, o cümlədən vətəndaşların qəbulu və minlərlə müraciətin araşdırılması zamanı qaldırılan məsələlərin əksəriyyətinin qanunauyğun həllini tapdığını, "102" Xidmətinə, qaynar xətlərə daxil olmuş, sosial şəbəkələrdə yayımlanmış 3 milyona yaxın müraciətə çevik reaksiya verildiyini, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın təxminən 88.3 faizinin ödənildiyini, əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini nəzərə çatdırıb.

İclasda Nazirliyin struktur qurumlarının və ərazi polis orqanlarının rəisləri hesabat məruzəsi ilə çıxış ediblər.

Kollegiya iclasına yekun vuran daxili işlər naziri 2022-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu da nəzərə çatdıraraq onların aradan qaldırılması yolları və qarşıda duran vəzifələrlə bağlı konkret tapşırıq və tövsiyələrini verib. Həmçinin, Azərbaycan Respublikasına xidmətə görə şəxsi heyətə təşəkkür edib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət və qayğıya, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada asayişin, daxili təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da əzmlə davam etdiriləcəkdir.

## Qanunun tələbləri icra olunur



Daxili İşlər Nazirliyi tərəfindən "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" Qanunun tələblərindən irəli gələn vəzifələrin icrası diqqət mərkəzində saxlanılır.

Respublikanın şəhər, rayon polis orqanları tərəfindən aidiyyəti təşkilatlarla birgə qanunla tütün çəkilməsinə icazə verilməyən yerlərdə monitorinqlər keçirilir, fiziki və hüquqi şəxslər, fərdi sahibkarlar, eləcə də əhali arasında geniş izahat işləri aparılır.

Ümumilikdə, 2022-ci il ərzində respublikanın şəhər, rayon polis orqanları tərəfindən keçirilmiş tədbirlər nəticəsində "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" Qanunla qadağan edilmiş yerlərdə tütün çəkdiklərinə, tütün məmulatları tullantılarını ətraf mühitə atdıqlarına görə 14.421, tütün məmulatlarını yektinlik yaşına çatmayanlara satdıqlarına görə 816 şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 212.1-ci, 212.3-cü, 212.4-cü və 455.2-ci maddələrinə əsasən inzibati tənbeh tədbiri tətbiq olunub.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

## Ekoloji təhlükəsizlik diqqət mərkəzindədir

Daxili işlər orqanları tərəfindən ekoloji cinayətlərin və ekoloji təhlükəsizlik əleyhinə olan inzibati xətaların qarşısının alınması məqsədilə zəruri tədbirlər həyata keçirilir.

2022-ci il ərzində bu istiqamətdə keçirilən tədbirlər nəticəsində qanunsuz ağac kəsmə faktı üzrə 200, balıq və başqa su heyvanlarını tutmağa görə 112, qanunsuz ovla bağlı isə 2 cinayət işi başlanılıb.

Eyni zamanda, meşə qanunvericiliyinin tələblərini, yerin təkindən istifadə qaydalarını pozduqlara və qanunsuz ov etdiklərinə, eləcə də mülki silahın daşınması qaydalarını pozduqlarına görə 3056 nəfər barəsində inzibati tənbeh tədbiri görülüb.

Daxili İşlər Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə respublikanın şəhər və rayonlarında, meşə, park, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında, çimərliklərdə məişət tullantılarının tutumundan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə də tədbirlərini davam etdirib. Ötən il ərzində keçirilən birgə tədbirlər nəticəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozan 14.600 fiziki və hüquqi şəxs barəsində inzibati tənbeh tədbiri görülüb.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*Natiq Cavadov,*
*polis mayoru*

## Beynəlxalq müsabiqədə üçüncü oldu



Elmi tədqiqatların nəticələrinin yayılması, həmçinin xarici dövlətlərin elm və təhsil müəssisələrinin müəlliflər kollektivləri arasında elmi-yaradıcılıq əlaqələrinin inkişafı məqsədilə hər il Rusiya Federasiyası DİN-in İdarəetmə Akademiyası tərəfindən "Elmi kitab" adlı beynəlxalq müsabiqə keçirilir.

Sözügedən müsabiqədə bu il ölkəmizi DİN-in Polis Akademiyasının DİO-nun inzibati fəaliyyəti kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru, polis polkovniki Şahin Şükürov təmsil edib. Ekspert komissiyasının qərarına əsasən







həmkarımızın "Terrorçuluqla mübarizədə hüquqi əsaslar" adlı analitik materialı Milli Təhlükəsizlik nominasiyası üzrə üçüncü yerə layiq görülüb.

*"Polis"*

## Hərbi sürücülər üçün təlim

Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsi və 1-ci Hərbi Polis Bölməsinin Hərbi Avtomobil Müfəttişliyi birgə nümunəvi məşğələ təşkil edib.

Təlim Bakı qarnizonunda yerləşən hərbi hissələrin sürücüləri, maşın böyükləri və TNM rəislərinin iştirakı ilə keçirilir.

Təlimin ilk günü 1-ci Hərbi Polis Bölməsinin Hərbi Avtomobil Müfəttişliyinin rəisi, baş leytenant Vaqif Əliyev ordumuzda sürücü ixtisası üzrə xidmət edən hərbi qulluqçuların peşəkarlığının və hazırlıq səviyyəsinin yüksəldilməsi üçün görülən işlər barədə məlumat verib.

Qeyd edib ki, hərbi sahədə də yol hərəkətinin təhlükəsizliyinin təmini ilə bağlı heyətin peşəkar biliklərinin formalaşdırılması məqsədilə keçirilən silsilə tədbirlər mart ayına qədər davam edəcək.

Sürücülər tərəfindən yol hərəkəti qaydalarına əməl edilməsinə, hərəkət təhlükəsizliyinin təmin olunmasına dair əmrlərin icrası, həmçinin qarnizon hərbi hissələrinin avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin yoxlanılması, onlardan öz təyinatı üzrə istifadə edilməsi və yol sənədlərinin düzgün tərtibi mövzularını əhatə edən məşğələlərin keçirilməsinə Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli də dəvət olunub.




O, çıxışında sürücülər tərəfindən hərbi nəqliyyat vasitələrinin istənilən hava şəraitində, müxtəlif relyefli ərazilərdə təhlükəsiz idarə edilməsi, eləcə də hərbi nəqliyyat vasitələrinin iştirakı ilə baş verən qəzaların tam aradan qaldırılması, avtomobillərə düzgün texniki qulluğun göstərilməsi məsələlərindən bəhs edib.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Nazir Vilayət Eyvazov Qəbələdə vətəndaş qəbulu və sıra baxışı keçirib





Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq yanvarın 25-də və 26-da Qəbələ Rayon Polis Şöbəsində növbəti qəbul keçirib.

Nazir əvvəlcə Qəbələ şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarından qəbula gələn 104 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının Qəbələdə yerləşən hərbi hissəsinə gedib. Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Nazir V.Eyvazov hərbi qulluqçuların kazarma-məişət şəraiti ilə maraqlanıb, həmçinin silah təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə yaxından tanış olub.

Sonra daxili işlər nazirinin rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib. Nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə əminliyini ifadə edib.

Sonda general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 34-ü Vətən müharibəsi iştirakçısı, 3-ü isə şəhid ailələrinin üzvləri olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 131 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.





## Qəhrəmanımızın döyüş yolu səhnələşdirilib



Bu günlərdə Sumqayıt Dövlət Dram Teatrında Hafiz Ataxanlının Zəfər gününə həsr olunmuş "Missiya" adlı mistik-dramatik tamaşası təqdim edilib.

Tamaşaçıları rayon ictimaiyyəti, şəhid ailə üzvləri, Laçın RPŞ-nin veteranları, Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşları və Vətən müharibəsinin qaziləri olan səhnə əsərində Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış Azərbaycanın Milli Qəhrəmanı, milis



starşinası Qorxmaz Eyvazovun obrazı da baş qəhrəmanlardan biri kimi canlandırılıb.

Şəhid ailələri adından danışan Q.Eyvazovun oğlu Sumqayıt ŞPİ-nin Xüsusi Təyinatlı Bölüyün komandir müavini, polis mayoru Asəm Eyvazov bundan sonra da şəhidlərimizin ruhunu şad etmək üçün hər birimizin üzərinə daha böyük məsuliyyətin düşdüyünü bildirib. Qeyd olunub ki, bu gün Şuşada dalğalanan Azərbaycan bayrağı düşmənlərə və onun havadarlarına göz dağıdır.

Yeri gəlmişkən, qəhrəmanlıq dramına teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov quruluş verib. Bədii tərtibat Elşən Sərxanoğluna, musiqi tərtibatı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevə məxsusdur.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

## Hədəfdən yayınmadılar




Bu günlərdə Mərakeşdə atıcılıq üzrə İSSF Dünya kuboku yarışı keçirilib.

Qırx beş ölkədən 224 idmançı Dünya kuboku uğrunda hədəfi nişan alıb. Azərbaycanın atıcılıq üzrə milli komandasının nəticələri ümidverici olub.

Kişi nişançılarımız - Fuad Qurbanov, Cavid Həsənov və Emin Cəfərov dairəvi stend atıcılığında bürünc medal qazanıblar.

Komandamızın qadın üzvlərindən dairəvi stend üzrə Nurlana Cəfərova, Sevda Nəcəfova və Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin qanunsuz miqrasiyaya qarşı mübarizə idarəsinin analitik qrupunun inspektoru, polis baş leytenantı Riqina Meftaxetdinova 4-cü yerlə kifayətləniblər.

*R.Vəliyev*

## Çempion polis övladları...




Serbiyanın Sombor şəhərində qadın boksçular arasında keçirilən Millətlər kubokunda Azərbaycanın 2 idmançısı qızıl medal qazanıb.

Azərbaycan millisinin təmsilçisi Banuçiçək Nəsirli 46 kiloqram çəkidə yeniyetmə boksçuların mübarizəsində yarımfinalda macarıstanlı Pat-



risiya Petrimanı məğlub edib. O, növbəti görüşdə digər macarıstanlı Roksana Talpasla üz-üzə gəlib və finalda rəqibini 5:0 hesabı ilə məğlub edərək qızıl medala sahiblənib.

Emili Rzayeva da B.Nəsirlinin uğurunu təkrarlayıb. Boksçumuz gənclərin yarışında 66 kiloqram çəkidə rinqə çıxan Avropa çempionu serbiyalı Anastasiya Boskoviçdən güclü olub. E.Rzayeva 4:1 hesabı ilə qələbə qazanaraq qızıl medala layiq görülüb.

Nəticədə milli komandamızın qazandığı mükafatların sayı 8-ə çatıb.

Qeyd edək ki, hər iki qalibimiz polis övladıdır.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

## Görür, qiymətləndirirlər

Cinayətkarlıqla qətiyyətli mübarizə aparmaq, ictimai-siyasi sabitliyi qorumaq, vətəndaşın xidmətində durmaq, bir sözlə vətəndaş məmnunluğunu təmin etmək qanun qoruyucuları olaraq polisin vəzifə borcudur. Günün istənilən vaxtında vətəndaş üzləşdiyi problemin həlli üçün müraciət edirsə, o cavabsız qalmır, tezliklə həllini tapır. Hətta polisə aidiyyəti olmayan məsələlərdə də asayiş keşikçiləri köməklərini əsirgəmirlər. Sevgini, saygını polis belə qazanır...

Sosial şəbəkə istifadəçisi Vüsal Hacıyev həyata keçirilən operativ tədbirlərə görə DİN-in "Facebook" səhifəsində Azərbaycan Polisinə təşəkkür mesajı yazıb. O, müraciətilə əlaqədar Sabunçu Rayon Polis İdarəsinin 13-cü Polis Bölməsinə dəvət olunduğunu, nəzakətlə qarşılanaraq müraciətinin müsbət istiqamətdə həll edildiyini qeyd edir.

"Soyuq, qarlı və şaxtalı havada 24 saat fasiləsiz xalqımızın keşiyində duran, operativ xidmət edən polis əməkdaşlarına təşəkkürümü bildirirəm. DİN rəhbərliyinə minnətdarlığımı ifadə edir, çətin və şərəfli xidmətlərində uğurlar arzulayıram". Bu sözlər isə Bakı şəhər sakini Nazim Abdullayevin DİN rəhbərliyinə ünvanladığı minnətdarlıq məktubundadır.

*Teymur Əlizadə*

# Şəhidlər Xiyabanında gördüklərimiz...









Düz 33 il öncəki gecənin, 20 Yanvar faciəsinin qurbanlarını anmaq üçün Şəhidlər Xiyabanına doğru addımlayanlara qarışmışdıq Ümumxalq Hüzn Günü.

Tarix qarşısında, millətlər içində alnımızı açıq, üzümüzü ağ edənlərin hüzuruna sakitcə "axıb" gedirdik. Elə bil, adi vaxt səs-küylü Parlament prospektində insanlar bu günün, ya da o gecənin xatirinə ayaq səslərinin belə eşidilməsindən çəkinirdilər.

Prospektin girişində polisin quraşdırdığı ilk blok-postun qarşısında seyrəklik müşahidə olunsa da, səhər saatları olmasına baxmayaraq, getdikcə ziyarətçilərin sayı artır, növbəti postun qarşısına toplaşırdılar.

Hər il qurulan bu mobil postlar sayəsində ziyarətçilər mərhələli şəkildə Xiyabana daxil olub ziyarətlərini rahat, qarışıqlıq olmadan həyata keçirə bilirlər. Şəhid yaxınlarının və Vətən müharibəsində sağlamlıqlarını itirən qazilərin postlardan növbəsiz buraxılması, polis əməkdaşlarının onlara yaxınlaşıb nəzakətlə kömək təklif etmələri diqqətimizi çəkir.

Öyrəndik ki, ziyarətçilərin təhlükəsizliyini təmin etmək üçün Dağüstü Park istiqamətində 10 polis postu qurulub və xidmətə əsasən paytaxtdakı polis idarələrinin, eləcə də Əlahiddə Çevik Polis Alayının əməkdaşları cəlb edilib. Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsinin əvvəlcədən elan etdiyi kimi, bəzi küçə və prospektlərdə nəqliyyatın hərəkətinə məhdudiyyət qoyulduğuna görə yol polisi alternativ yollarda nəzarəti artırmışdı.

Xiyabana yaxınlaşdıqca əllərində qərənfil tutan uşaqlı-böyüklü hamının simasında kədərin "rəngi" bir qədər də tündləşirdi sanki. Qərənfil məhz o faciəli günlərdən sonra "şəhid gülü" kimliyinə bürünüb. Bəlkə, buna görə idi ki, yolun ortasına gövdəsindən qopub düşmüş qərənfili həmkarlarımızdan biri yeyin addımlarla yaxınlaşıb elə götürdü ki, elə bil yerdən bayraq qaldırırdı...

Əbədi məşəl kompleksinin qarşısına çatanda buxtadakı gəmilər o günlərdən bəri 33-cü dəfə fit verdi... Qanlı faciəni SOS siqnalı ilə dünyaya çatdıran dənizçilərimizin harayı yenidən canlananda, hamı ayaq saxladı, əsl məzar sükutu çökdü Xiyabana. Bakı vaxtı ilə saat 12:00-da şəhidlərimizin əziz xatirəsinin bütün ölkə ərazisində bir dəqiqəlik sükutla yad edildiyini orada bir bu səs bəyan edirdi, bir də hərbi salamla müntəzir dayanan polis əməkdaşlarının məğrur duruşları.

*Rəşad Mehtiyev,*
*Ruslan Vəliyev*

# OĞURLANMIŞ QƏTL

*Əvvəli ötən sayımızda.*

Mən hər şeyi olduğu kimi danışmağa başladım və komissar elə həyəcanlandı ki, hətta hirsindən yamyaşıl oldu. Ancaq elə ki mən bir polisin o birinə "Siz onunla gedin, kolleqa, mən isə şahidləri yazım" dediyi yerə çatdım, o, rahatca köksünü ötürdü və dilləndi:

- Ay Allah, axı onlar bizim işçilər olmayıblar! Bəs siz niyə bu "polislərə" qarşı əsl polisləri çağırmadınız?! Axı sizin necə ağlınıza gəlmədi ki, polislər heç vaxt bir-birinə "kolleqa" demirlər? Xəfiyyələr bəlkə belə danışa bilərlər, ancaq polis - heç vaxt! Eh, məsum sivil, "kolleqa", axı siz niyə onların həbsi üçün heç bir tədbir görmədiniz?
- Axı nəyə görə? - mən kədərlə soruşdum.
- Sizin qonşunuzu öldürdüklərinə görə! - komissar qışqırdı. - Ən azı qətldə əlbir olduqlarına görə. Siz neçə ildir Kruçemburski küçəsində yaşayırsınız?
- Doqquz - mən dedim.
- Onda siz bilməli idiniz ki, saat 11:15-də ən yaxın polis patrulu Krıtov bazarının yaxınlığında olur. İkinci patrul bu zaman Silezski və Perunova küçələrinin kəsişməsində, üçüncüsü nizami addımlarla 1388 nömrəli evin qarşısında addımlayır. Sizin polisinizin qaçdığı küçədən bizim polisimiz ya saat on qırx səkkizdə, ya da on iki iyirmi üçdə qaça bilər, ancaq heç bir saatda bu mümkün deyil, çünki orada olmur. Lənət şeytana, axı bunu hər oğru bilir, vicdanlı vətəndaşın isə bu haqda anlayışı da yoxdur! Bəlkə siz düşünürsünüz ki, mənim hər tinin dalında polisim var? Əgər sizin dediyiniz vaxtda o lənətə gələsi tindən bizim polis qaçsaydı, bu, çox fövqəladə hadisə olardı. Əvvəla ona görə ki, 11:15-də o, əmrə uyğun olaraq Krıtov bazarının yanında olmalıdır, ikincisi, ona görə ki, o, bizə qətl haqqında vaxtında xəbər verməyib. Bu, təbii ki, çox ciddi pozuntu olardı.
- Ay Allah! - dedim. - Bəs qətl necə olsun?
- Qaranlıq məsələdir - açıq-aydın sakitləşmiş komissar dedi. - Bu, pan Qoudek, çox xoşagəlməz hadisədir. Bunun arxasında çox hiyləgər cani və böyük bir fırıldaq dayanır. Hər şey bicliklə düşünülüb: əvvəla, onlar qurbanın evə nə vaxt gəldiyini, ikincisi, polislərin patrul marşrutunu və vaxtını bilirmişlər, üçüncüsü,




onlara lazım imiş ki, polis ən az iki gün qətldən xəbər tutmasın. Yəqin ki, bu vaxt onlar gizlənmək və izlərini itirmək üçün lazım imiş. İndi sizə hər şey aydındır?
- O qədər də yox - mən dedim.
- İş belə olub - polis komissarı səbrlə mənə başa salmağa başladı. - İki cani polis paltarı geyinib rusu izləyiblər. Onlar, ya da hansısa üçüncü adam ona atəş açıb. Əlbəttə siz bizim nümunəvi polisin dərhal hadisə yerinə gəlməsini görüb sakitləşmisiniz. Yadınıza salın, birinci polisin fiti necə səslənirdi?
- Bir az boğuq - təhər. - mən dedim. - Mən elə bildim ki, bu, onun tənginəfəs olduğundandır.
- Aha! - komissar razılıqla bildirdi. - Qısası, onlar elə eləmək istəyirdilər ki, siz qətl haqqında polisə xəbər verməyəsiniz. Bu yolla onlar xaricə qaçmaq üçün vaxt qazandılar. Başa düşürsünüz? Sürücü də yəqin onların dəstəsindən olub. Maşının nömrəsini xatırlamırsınız?
- Etiraf edirəm ki, biz maşının nömrəsinə fikir vermədik. - mən pərtliklə dilləndim.
- Eybi yox, onsuz da nömrə saxta olub... Beləliklə, onlar o rusun meyidini də aradan götürə biliblər. Yeri gəlmişkən, o, rus deyildi, makedoniyalı idi, soyadı da başqa cür idi: Protasof. Yaxşı, çox sağ olun, cənab. İndi isə sizdən doğrudan da istintaqa görə bu barədə danışmamanızı xahiş edirəm. Sözsüz ki, bu, siyasi qətl imiş. Onun təşkilatçısı, yəqin ki, çox fərasətli adamdır, çünki, pan Qoudek, siyasi qətllər, adətən çox pis icra olunur. Siyasət qarışdığı yerdə, heç fərli cinayət də olmur, orda ancaq kobud davalara rast gəlmək olar. - komissar nifrətlə qeyd etdi.

Sonradan iş bir az aydınlaşdı. Düzdü, qətlin səbəbi bilinmədi, ancaq üç qatilin adını polis öyrənə bildi. Hər üçü bu vaxt ərzində xaricə qaça bilmişdi. Beləcə bizim küçəmizdən qətlin necə oğurlandığını gördünüz. Elə bil onun tarixindən ən şanlı səhifəni cırdılar. Foşa, ya da Vrşoviç prospektindən kimsə təsadüfən bizim küçəmizə gələndə yəqin fikirləşir ki, "Nə darıxdırıcı küçədir!" Və biz küçəmizdə bu qədər sirli bir cinayətin baş verdiyini danışanda, heç kim inanmır. Özünüz bilirsiniz də - başqa küçələr bizim paxıllığımızı çəkirlər...

## Mükafatlı sual rubrikası

Ulu öndər Heydər Əliyevin göstərişi ilə şair-dramaturq Hüseyn Cavidin cənazəsinin qalıqlarının gətirilərək Naxçıvanda dəfn edilməsi üçün Sibirə yollanan nümayəndə heyətinin tərkibində kimlər olub?
Vatsap: +99455-875-16-39

# Axtarılan yazıçını xanım həmkarımız tapdı



"Mükafatlı sual" rubrikasının bu dəfəki qalibi də xanım həmkarımızdır.

Oxucularımızdan ilk əsərlərini "Kapitan" imzası ilə yazan, sonralar isə götürdüyü ədəbi təxəllüslə dünya ədəbiyyatında daha çox məşhurluq qazanan yazıçının əsl adını soruşmuşduq.

**Xətai RPİ-nin dəftərxana operatoru, polis serjantı Nəzrin Cəfərova** vatsap nömrəmizə bu yazıçının Mark Tven olduğunu hamıdan tez yazmaqla digər həmkarlarımızı qabaqlayıb və rubrikanın qalibi olub.

O, bizdən mükafat olaraq Qabriel Qarsiya Markesin "Yüz ilin tənhalığı" romanını əldə etdi. Xatırladaq ki, yazıçının bu əsəri dünya ədəbiyyatının ən yaxşı romanlarından biri hesab olunur.

Qalib oxucumuz Nəzrin xanımın kitaba bağlılığını, oxumaq, öyrənmək həvəsini alqışlayır və xidmətində uğurlar arzulayırıq.

# "İsti izlər"lə...

Kürdəmirdən Bakıya çörək pulu qazanmaq arzusu ilə gələn Sübhan Nərimanov rayonu ərazisində yerləşən emalatxanada pəncərə ustası işləməklə gün-güzəran qurmağa çalışıb. Qazandığı pullarla özünə "BMW" markalı avtomobil alsa da mühərriki köhnə olduğundan onu sürə bilməyib. Yenisini alana qədər isə köhnə mühərriki emalatxananın həyətində saxlayıb. Bir neçə gün öncə işə gələrkən emalatxananın qapısının sındırıldığını görüb. Həyətə göz gəzdirəndə mühərrikin də yerində olmadığını aşkarlayıb. 1800 manat dəyərində olan mühərrikin oğurlanması ilə bağlı üz tutub Nərimanov RPİ-nin 17-ci Polis Şöbəsinə.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Qubadlı rayon sakini 2002-ci il təvəllüdlü Fərid Hüseynov müəyyən edilərək saxlanılıb.

Digər oğurluq hadisəsi isə Abşeron rayonunun Saray qəsəbəsində baş verib. Belə ki, Saray qəsəbə sakini Zahid Qurbanov ona məxsus evdən oğurluq olması ilə əlaqədar Saray Polis Bölməsinə ərizə ilə müraciət edib. Keçirilən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluqda şübhəli bilinən Sakit Hümbətov saxlanılıb. Araşdırma zamanı oğurluq etdiyini etiraf edən Ş.Hümbətovun Zahid Qurbanova 3 min 485 manat dəyərində maddi ziyan vurması müəyyən edilib.

Hər iki hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*




Yanvarın 17-də Səbail rayonu ərazisində əcnəbi vətəndaşın bank hesabından 846 min rupinin qeyri-aşkar şəraitdə oğurlanması barədə polisə məlumat daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluq əməlində şübhəli bilinən həmyerlisi V.Bahagat müəyyən olunaraq Beynəlxalq Hava Limanı ərazisində saxlanılıb.

◆◆◆

Yanvarın 19-da "Toyota" markalı bir avtomobildən 15 min manat məbləğində pulun oğurlanması, digər eyni markalı avtomobildən isə oğurluğa cəhd olunması barədə **Xətai RPİ-nin 37-ci Polis Şöbəsinə** daxil olan məlumatlar əsasında polis əməkdaşlarının keçirdikləri operativ tədbirlərlə oğurluq əməllərində şübhəli bilinən, əvvəllər də analoji cinayətlərə görə məhkum olunmuşlar – R.Məmmədov və R.Məlikov müəyyən olunaraq saxlanılıblar.

◆◆◆

**Ağcabədi Rayon Polis Şöbəsi** əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində əvvəllər məhkum olunmuş H.Əhmədovun evinə baxış zamanı oradan nömrəsi silinmiş "AK-74" markalı avtomat silahı, 4 ədəd patron və 1 ədəd patron darağı aşkar olunaraq götürülüb.

POLIS
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10000
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik